1.qxd 29.01.2021 9:21 Page 1

Azərbaycan dünyaya günəş kimi doğacaq.
Heydər ƏLİYEV

Xalqın sözü haqq sözüdür

İLERİK

№ 01-02 (6023-6024) 28 yanvar 2021-ci il Qəzet 1937-ci ildən çıxır Qiyməti 40 qəpik

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Şuşa şəhərinə səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrliyində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoyub.

Uçuş-enmə zolağının uzunluğu 2800 metr olacaq hava limanı beynəlxalq standartlara uyğun infrastrukturla təchiz ediləcək. Strateji əhəmiyyətli Füzuli Beynəlxalq Hava Limanı azad edilmiş bölgələrimizin inkişafı, ərazilərin bərpası, yüklərin daşınması, turizmin inkişafı üçün çox mühüm bir layihədir. Qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, əsası qoyulmuş Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolu ilə çox rahat və qısa müddətə Şuşa şəhərinə gedə biləcəklər. Şuşaya çəkilən yol geniş və yüksək keyfiyyətli olacaq. İndiki vəziyyətdə işğaldan azad olunmuş rayonlarda aeroportların inşası vacibdir, çünki insanları operativ şəkildə ora aparmağa ehtiyac yaranır. Vaxtında Gəncə, yaxud Lənkəran, Qəbələ hava limanı tikilməsi ötən il iyul hadisələrindən sonra Azərbaycanla birgə hərbi təlimlər keçən türk hərbçilərinin və təyyarələrinin gəlməsi üçün mühüm rol oynadı. Azad edilmiş torpaqlarımızda ikinci beynəlxalq hava limanı Kəlbəcər və ya Laçın rayonlarının ərazisində inşa ediləcək.

Prezident İlham Əliyevin dediyi kimi, böyük qayıdış başlayır, bütün işlərə start verildi: "Düşməni torpaqlarımızdan qısa müddət ərzində qovduğumuz kimi, Qarabağı da qısa müddətdə bərpa edəcəyik". Müharibədən cəmi iki ay vaxt keçsə də, Azərbaycan dövləti böyük quruculuq işlərinə start verib. Azərbaycan dövləti Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndləri, bütün tarixi abidələri bərpa edəcək. Şuşanın bərpası planlı şəkildə aparılacaq, Pənahəli xanın şəhərinin tarixi ruhu qorunacaq.

Şuşa Prezident İlham Əliyev tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edilib. Şuşanın bərpası üçün baş plan hazırlanır. Bütün binaların təftişi aparılıb. Ermənilər Şuşanın tarixi erməni şəhəri olduğunu iddia etsələr də, orda heç bir ciddi abadlıq işləri aparmayıblar, yalnız xuntanın rəhbərləri özləri üçün villalar tikdiriblər. Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərinin birinə çevriləcək. Abidələrin əsl siması özlərinə qaytarılacaq.

Prezident İlham Əliyev bildirmişdir ki, 8 Noyabr tarixi xalqımızın tarixində əbədi qalacaq. Noyabrın 8-də qədim Şuşa şəhəri Azərbaycan hərbçilərinin böyük qəhrəmanlığı, peşəkarlığı, milli ruhu sayəsində işğaldan azad edilib. Düşmənə sarsıdıcı zərbələr endirərək 300-dən çox yaşayış məntəqəsini və Şuşanı azad etdik.

Düşmən cəmi 20 gün ərzində Ağdam, Laçın və Kəlbəcər rayonlarından qoşunlarını çıxarmağa məcbur olub. Şanlı Azərbaycan Ordusunun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir. 44 günlük müharibənin hər bir günü zəfər günü idi. Azərbaycan ordusu bir gün belə geri addım atmadan yalnız irəli gedib. Bu, dünya hərb tarixində çox nadir hallarda müşahidə edilən bir mənzərədir. İnkişaf etmiş ölkələrin hərbi mütəxəssisləri Vətən müharibəsinin hər bir gününü təhlil edirlər. Şuşa əməliyyatı aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacaqdır. Şuşanın işğaldan azad edilməsi düşmənə vurulan ən böyük zərbə idi. Azərbaycan ordusu Xocalı cəlladlarını, özündən yalançı qəhrəman düzəldənləri məhv edib, Şuşanı Sarkisyan-Koçaryan cütlüyünün ordusunun əlindən geri alıb. Xuntanın nümayəndələri müharibə vaxtı qaçıb gizlənmiş, sadə erməni gənclərini qırğına vermişlər.

Prezident İlham Əliyev qeyd etmişdir ki, 1992-ci ilin mayında ovaxtkı Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi və hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa işğal edilib. Azərbaycan torpaqlarının itirilməsi hakimiyyət uğurunda qeyri-sağlam mübarizənin nəticəsi olub. Torpaqların işğal edilməsi o vaxt hakimiyyətdə olmuş AXC-nin birbaşa məsuliyyətidir. Şuşanın, Kəlbəcərin, Laçının, bütün ətraf bölgələrin işğal edilməsi, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaradılması Xalq Cəbhəsi-Müsavat hakimiyyətinin günahıdır. AXC ovaxtkı hakim komandanı yıxıb hakimiyyətə gəlmək üçün Şuşa kimi alınmaz qalanı heç bir əməliyyat keçirmədən boşaldaraq düşmənə təslim edib. Xalq Cəbhəsi-Müsavat hakimiyyətə gəlmək naminə satqınlıq, cinayət törədib. Səriştəsiz kadrlardan formalaşmış AXC hakimiyyəti talançılığı dövlət siyasətinə çevirib, rüşvətxorluğu öz ideoloji prinsipi elan edib, satqınlığı, fərariliyi Azərbaycan xalqının tarixinə bir ləkə kimi yapışdırıb. Ovaxtkı müdafiə naziri demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam, amma qorxaqcasına Şuşadan qaçmışdı.

Ermənilər guya bu əməliyyat haqqında əfsanələr uydurmuşdular - dağlarda toy. Azərbaycan onlara elə toy tutdu ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar. 44 günlük müharibənin gedişində dünyanın müxtəlif geosiyasi qütblərindən edilən təzyiq və təhdidlərə baxmayaraq, Ali Baş Komandan düşməni torpaqlarımızdan qovmaq üçün sona qədər döyüşmək əzmindən geri dönməmişdir. Milli xəyanət nəticəsində

itirilmiş müqəddəs Şuşa şəhəri Prezident İlham Əliyevin qətiyyəti, ordumuzun rəşadəti, xalq-ordu-iqtidar vəhdəti nəticəsində azad olundu. Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır.

Sovet dövrünün rəsmi ideoloji basqılarına baxmayaraq, Ulu Öndər Azərbaycanda milli şüurun yüksəldilməsi üçün ardıcıl addımlar atmışdır. 1920-ci illərdə sovet bolşevik hakimiyyətinin Azərbaycanın daxilində tədricən partlayan mina kimi qoyduqları Dağlıq Qarabağ probleminin həlli üçün Ulu Öndər burda demoqrafik balansı azərbaycanlıların xeyrinə dəyişən tədbirlər görmüşdür.

1969-1982-ci illərdə Yevlaxdan, Ağdamdan Xankəndiyə dəmir yolu çəkilmiş, Dağlıq Qarabağda yeni müəssisələr yaradılmış və bu müəssisələrə Azərbaycanın müxtəlif yerlərindən mütəxəssislər gəlmişdi. Ulu Öndərin bu uzaqgörən siyasəti nəticəsində Dağlıq Qarabağda milli tərkib azərbaycanlıların xeyrinə xeyli dəyişmişdi. Heydər Əliyev Azərbaycanda qalsaydı, növbəti 10 il ərzində Dağlıq Qarabağ Muxtar Vilayətində azərbaycanlılar əksəriyyət təşkil edəcəkdilər.

Ulu Öndərin uzaqgörənliyi, doğma xalqına bağlılığı, doğma ədəbiyyatına, mədəniyyətinə olan sevgisi Molla Pənah Vaqifin şərəfinə məqbərənin tikintisində də özünü göstərib. Xanın vəziri olan insanın şərəfinə o vaxt - sovet dövründə məqbərə ucaltmaq qeyri-adi bir hadisə idi. Eyni zamanda bununla Qarabağın tarixin bütün mərhələlərində azərbaycanlılara məxsus olması haqqında aydın mesaj verilirdi.

Azərbaycan xalqı əsrlər boyu azadlıq, müstəqillik eşqi ilə yaşamışdır. 1982-ci ildə Heydər Əliyevi Bakıdan Moskvaya təyin etməsəydilər, burada separatizmin baş qaldırmasına imkan verməzdi. Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəlməsi ilə Azərbaycan iflasdan xilas olmuş, milli inkişafın, milli dövlətçiliyin yeni mərhələsi başlamışdır. Xoşbəxt xalqıq ki, özümüzü müstəqil dövlət kimi təsdiq etmişik.

Qazilərə və şəhid ailələrinə göstərilən dövlət qayğısı haqqında qeyd etmək olar ki, bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunub. Bütün şəhid ailələrinə dövlət tərəfindən mənzillər, evlər veriləcəkdir. Şəhid ailələri üçün müavinət 300 manatdan 500 manata qaldırıldı və daim o ailələr diqqət mərkəzində olacaqlar. Birinci Qarabağ müharibəsində həlak olmuş 9 min şəhidin ailəsinə dövlət artıq mənzillər, evlər verib. Yaralı hərbçilərimiz dövlət tərəfindən qayğı ilə əhatə olunub. Əlil olmuş hərbçilərin reabilitasiyası, onların müasir protezlərlə təmin edilməsi məsələsi öz həllini tapacaq. İkinci Qarabağ müharibəsində Qələbə münasibətilə yeni orden və medallar təsis edilərək Prezident tərəfindən müharibədə qəhrəmanlıq göstərmiş minlərlə hərbçilər təltif edilib. Bu müharibəni şəhidlərimizin canı, qanı hesabına, hərbçilərimizin şücaəti hesabına qazanmışıq.

Prezident İlham Əliyev həmişə çıxışlarında "Mənim sözüm imzam qədər qüvvətlidir", - deyir. Şuşa səfəri Milli Liderin sözünün və əməlinin vəhdətinin növbəti nümayişi oldu.

Prezident 2010-cu noyabrın 1-də Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılışında çıxış edərkən demişdi ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaq. 2021-ci ilin yanvarın 14-ü həmin vəd yerinə yetirildi. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı qaldırdı. Separatçı rejiminin nümayəndələri o vaxt demişdilər ki, ancaq bir halda Azərbaycan bayrağı Şuşada qaldırıla bilər, o da əgər Azərbaycan "Dağlıq Qarabağ respublikası"nı tanıyıb Dağlıq Qarabağda öz səfirliyini açsa. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycana ordusunun parlaq zəfəri bu iyrənc, təkəbbürlü ifadələrin sahiblərini qorxaqcasına susmağa məcbur edir. Prezident çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa edilməndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Bu sözlər də artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub.

Azərbaycan güc, əzm, iradə, cəsarət, mətanət, milli ruh hesabına tarixi ədaləti bərpa edir. Azərbay-

can ancaq öz gücü hesabına öz torpaqlarını azad etməli idi və bunu etdi. Biz bu müharibəyə hazırlaşırdıq və bunu gizlətmirdik. Düşmən qabağımızda diz çökməyə, kapitulyasiya aktına imza atmağa məcbur olmuşdur. Alçaldıcı kapitulyasiya aktı tarixdə əbədi qalacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin ailə üzvləri ilə birlikdə Şuşaya səfəri tarixi, eyni zamanda daxili və xarici auditoriyalara zəngin mesajlar ehtiva edən bir səfər idi. Müstəqillik tariximizdə ilk dəfə olaraq Azərbaycanın dövlət başçısı Şuşaya getmişdir. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın ziyarət etdikləri obyektlərin hamısı - Şuşa Realnı məktəbi, Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri, Qazançı kilsəsi, Bülbülün ev muzeyi, Vaqifin türbəsi, Cıdır tarixi dəyər daşıyır, şəhərin tarixin bütün mərhələlərində Azərbaycan xalqına məxsusluğunu simvolizə edir. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşadakı Saatlı, Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərini ziyarət edərək məscidlərə Məkkədən gətirilmiş "Qurani-Şərif" kitabları hədiyyə verib, dualar ediblər.

Şuşanın işğalı zamanı güllələnmiş və sonradan Bakıya gətirilmiş Azərbaycanın 3 dahi şəxsiyyətinin - Üzeyir Hacıbəyli, Bülbül və Natəvanın heykəlləri Şuşaya qaytarılıb. Güllələnmiş büstlər erməni vandalizminin şahidləridir. Dahi şəxsiyyətlərimizin büstləri bizim Qələbəmizin rəmzidir. Onların ruhu şaddır. Onlar doğma Vətənə qayıdıblar. Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Milli ruhumuzun təcəssümü olan şəxsiyyətlərin, xüsusən Üzeyir bəyin büstünün Qafqazın incisi, mədəniyyətimizin beşiyi olan Şuşaya qaytarılması yeni milli mədəni intibahımızın rəmzi olacaq. Vətən müharibəsindəki möhtəşəm Zəfərlə yeni doğuluşunu yaşayan azərbaycanlı etnosunu isə mütləq yeni mədəni intibah gözləyir.

Prezident avtomobil sürərkən Xocavənd rayonunun Böyük Tağlar kəndinin ərazisini nümayiş etdirir. Bəllidir ki, bir müddət əvvəl burda erməni diversantları böyük təxribat törətmiş, xüsusi əməliyyatdan sonra çoxsaylı diversantlar ələ keçirilmişdi. Moskva görüşü ərəfəsi Ermənistan Baş naziri onların azad olunmasını şərt kimi irəli sürsə də, Azərbaycan bu tələbi rədd etmişdi.

Xocalı rayonun Sığnaq kəndindən keçərkən isə Azərbaycan, Türkiyə bayraqları və yolu inşa edən Türkiyənin "Kolin" şirkətinin bayrağı nümayiş olunur. Bu, keçmiş Dağlıq Qarabağın inzibati ərazisi olmuş yerlərə Türkiyə və Azərbaycanın birgə daxil olmasının rəmzidir.

Paşinyan və ailə üzvləri, daha əvvəllər isə Sarksiyan, Koçaryan və digər xunta üzvləri Şuşaya hərbi əsirləri işgəncə etmək, büst oğurlamaq, talan üçün gəlirdisə, Azərbaycan rəhbərliyi quruculuq üçün gedir.

Həm məscid, həm kilsəni ziyarət etməklə Prezident dünyaya tolerantlıq, gələcək birgəyaşayışın mümkünlüyü barədə mesajlar verdi. Biz bütün dinlərin mədədlərini qoruyuruq və qoruyacağıq. Düşmən bizim azad edilmiş torpaqlardakı dini abidələrimizi işğal dövründə məhv edib, 67 məscidi dağıdıb, yaxud da ki, yararsız vəziyyətə salıb. Heydər Əliyev Fondu tərəfindən bütün tarixi-dini abidələrimiz, o cümlədən Şuşadakı məscidlər əsaslı təmir və bərpa olunacaq.

1982-ci ilin 14 yanvar tarixində Heydər Əliyev Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışında iştirak etmişdi. Həmin vaxt İlham Əliyev də orada idi: 39 il sonra o, yenidən Şuşaya qayıtdı. Prezident 39 il əvvəlki səfərdə çəkilmiş fotonu əlində tutaraq yenidən eyni yerdə kamera önünə keçərək Ulu Öndərin Şuşayla bağlı vəsiyyətini, yarımçıq qalmış arzularını yerinə yetirdiyini, siyasi irsə sahib çıxıdığını göstərir.

Şuşanı görmək, Şuşaya qayıtmaq təkrarolunmaz bir hissdir. Vaqifin məqbərəsinin açılış günü səfər etməklə yalnız mədəniyyətimizə deyil, siyasi ənənələrimizdə varislik, ardıcıllıq mesajı verildi. İlham Əliyev 8 noyabrda Şuşanı Azərbaycana qaytarmışdı, yanvarın 14-də isə Azərbaycanı Şuşaya qaytardı.

Bu il Şuşada Vaqif Poeziya Günləri və "Xarı bülbül" festivalı keçiriləcək. Şuşada muğam dinləniləcək, beynəlxalq muğam festivalı keçiriləcək. Cıdır düzündə bundan sonra muğam səsi eşidiləcək, Azərbaycan mahnıları ifa olunacaq, böyük tədbirlər keçiriləcək. Şuşanı ermənilərdirmə cəhdlərinə son qoyulub.

Moskva səfərindən sonra Prezidentin Şuşaya səfəri Qarabağın sahibinin kim olması mesajını da ehtiva edir. Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır! Səfər barədə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın paylaşımları qısa zamanda sosial şəbəkələrdə aparıcı trendə çevrildi. Bununla mesaj verildi ki, ölkənin ali siyasi elitasının səfərləri önündə təhlükəsizlik baxımından heç bir narahatlıq yoxdur.

39 ildən sonra Şuşaya düşmənin belini qıran müzəffər, qalib Ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq! Qarabağın nə statusu, nə parlamenti, nə perspektivi, nə də gücü yoxdur. Onlar qondarma "Dağlıq Qarabağ respublikası"nın "parlamentini" Şuşa şəhərinə köçürəcəkdilər. Bu torpağın sahibləri gəldi, onları buradan qovdu və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi. "Parlament" də, status da gorbagor oldu, cəhənnəmə getdi.

Prezident İlham Əliyev bildirmişdir: "Azərbaycan şəhərlərinə, tarixi abidələrinə qarşı vandalizm aktlarını törədənlər Sarkisyan-Koçaryan cütlüyüdür. Koçaryan-Sarkisyan, mən müzəffər Ordunun Baş Komandanı kimi gəlmişəm və öz torpağımda durmuşam. Sizin iziniz də, tozunuz da rədd olub buradan və bir daha olmayacaq, heç vaxt olmayacaq".

Qondarma rejimin və Ermənistanın müharibə vaxtı qaçıb gizlənmiş, sonradan üzə çıxmış bəzi "siyasi liderlərinə" də sərt xəbərdarlıq edildi:

- Dağlıq Qarabağda özünü siyasətçi adlandıran bəzi ünsürlər Azərbaycanın səbri ilə oynamasın, 44 günlük müharibə onların yadından çıxmasın.
- Yoxsa ordu qurub torpaqları geri alacaq? Siz buradasınız, yaxındasınız. Gəlin alın, görüm necə alırsınız? İti qovan kimi qovmuşuq sizi, rədd etmişik, cəhənnəmə göndərmişik.
- Əgər kimsə revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək.
- Azərbaycanın dəmir yumruğu düşmənin belini qırıb, lazım olarsa, bir daha qırar.

Cıdır düzündə Yeravandan gələn dəstə sərxoş vəziyyətdə eybəcər rəqslər edirdilərsə, oranın əsl sahibi olan azərbaycanlılar Ali Baş Komandanın timsalında azərbaycansayağı çay dəstgahı ilə cavab verdilər. Şuşanı Cıdır düzüsüz təsəvvür etmək mümkün deyil, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil. İndi Cıdır düzü də, Şuşa da, Qarabağ da azaddır.

Prezident İlham Əliyev kənar qüvvələrə də açıq xəbərdarlıq etmişdir: "Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib". Prezidentin xüsusi təyinatlıların adını da təsadüfən çəkmədi. Şuşanı ağlasığmaz əməliyyatla azad edən bu qüvvələr erməni ordusunun kabusuna çevrilib və dövlət başçısı Ermənistana xəbərdarlıq edərkən onların adını çəkməklə təxribatlara qarşı veriləcək cavabın miqyasını göstərir. Azərbaycanı silahlı qüvvələri, qəhrəman övladları, xüsusi təyinatlılar, Şuşanı qoruyacaqlar ki, düşmən heç bu tərəfə baxmağa özündə cəsarət tapmasın.

Prezident İlham Əliyev: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ Azərbaycandır! Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib. Biz Şuşanın bütün yaralarını sağaldacağıq. Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək".

Prezident İlham Əliyev Ermənistanla dostluq edən müsəlman ölkələrinə də mesaj verdi. Ermənistan vandalizmi, irqçiliyi, etnik-dini dözümsüzlüyü dövlət siyasətinə çevirmiş islamofob ölkədir, məscidləri, dini abidələri, məscidlərin minarələrini dağıdıb, viranə qoyub, müqəddəs məbədləri təhqir edib, donuz saxlayıb, üzərində təhqiramiz ifadələr yazdırıb. Müsəlman dini abidələrini təhqir edən Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz. Ermənistanla dostluq edən müsəlman ölkələrin liderləri öz xalqlarına cavab verməlidir. Ermənistanı dost ölkə kimi qəbul etmək riyakarlıqdır, Allahsızlıqdır. Bir müsəlman ölkəsinin mütəxəssisləri Azərbaycanın icazəsi olmadan, qanunsuz olaraq torpaqlarımıza gəlib, orada aylarla oturub, Ermənistanın kriminal xunta rejimi ilə əlbir olub bu məscidi guya təmir ediblər. Yuxarı Gövhərağa məscidinin Ermənistan tərəfindən "təmiri" riyakarlıq rəmzidir.

Adətən, bir ölkənin tarixində yeni dövr, yeni mərhələ yarada bilmiş liderlərin ardıcılları haqqında "onun yetişdirdiyi xalq" ifadəsi işlənir. Milli Lider İlham Əliyevin hakimiyyətdə olduğu son illərdə vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. Bütün nəsillərdən olan vətəndaşlarımızın Qələbədə böyük zəhməti, payı var. Ancaq əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. Döyüşdə qəhrəmanlıq göstərən, öz şücaətləri ilə dünya hərbi ekspertlərini heyrətə salan əsgər, MAXE və zabitlərin çoxu ali təhsilini, orta təhsilini, hətta bir çox hallarda məktəbəqədər təhsilini İlham Əliyevin hakimiyyəti illərində alaraq vətənpərvər kimi yetişmiş 18-35 yaşlı gənclər idi. Vətən sevgisi bizi Qələbəyə gətirdi. Vətən sevgisi, vətənpərvərlik Qələbəmizin əsas amilinə çevrildi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi. Gənc nəsil, yaşlı nəsil, təcrübəli insanlar, bütün xalqımız, bütün etnik qrupların nümayəndələri, bütün dinlərin nümayəndələri bir yumruqtək birləşib.

Qələbəmizin rəmzi olan yumruq həm güc, həm də birlikdir. Azərbaycan bundan sonra daha da güclü olacaq. Birliyi olan ölkələr qələbə qazanırlar. İradəli, heç nəyə baxmayan, heç kimdən çəkinməyən, milli maraqları müdafiə edən liderlər qələbə qazanırlar. Azərbaycanın timsalında bunu hər kəs gördü. Azərbaycanın davası haqq davasıdır. Ermənistanın davası işğalçılıq davasıdır. Haqq-ədalət güc, iradə, siyasət, birlik hesabına zəfər çaldı! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

1.qxd 29.01.2021 9:21 Page 2

Xalqların rifahına xidmət edən beynəlxalq əməkdaşlıq

2021-ci il yanvarın 21-də Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirildi. Bununla da, Xəzərin karbohidrogen yataqlarının bölgüsü üstündə yaranmış ixtilaflar arxada qalır. Sazişin imzalanması dostluq və qardaşlıq münasibətlərin rəsmiləşdirilməsi deməkdir.

Etibarlı münasibətlər davamlı əməkdaşlığın əsasıdır. Ölkələr arasında açıq müzakirələrin aparılması davamlı əməkdaşlığa zəmin yaradır. Atılan addımlar və qəbul olunan qərarlar münasibətlərin dostluq və qardaşlıq ruhunda davam olunmasına xidmət edir. Qurulan əməkdaşlıq əlaqələri bütün istiqamətlər üzrə inkişaf etməlidir.

İmzalanmış saziş regionun inkişafına müsbət təsir göstərəcək mühüm beynəlxalq sənəddir. Azərbaycan və Türkmənistan ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlayır və bu yataq ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq.

Yeni perspektivləri vəd edən əməkdaşlıq. Xəzər mehriban qonşuluq dənizi, əməkdaşlıq dənizidir. Xəzər ölkələrimiz arasında təbii sərhəd olduğuna baxmayaraq, bundan sonra da ölkələrimizi və xalqlarımızı birləşdirəcək. Bizim əməkdaşlığımız regionun ümumi inkişafına əlavə imkanlar yaradacaqdır.

Perspektivə hesablanmış əməkdaşlıq. Bizim əməkdaşlığımız xalqlarımıza bu qədər nemətlər bəxş edən bu nadir su hövzəsinin qorumasına xidmət edir. Xalqlarının gələcəyi naminə edilən əməkdaşlıq, ölkələrimizin hələ illər boyu, onilliklər boyu davamlı inkişafını təmin edəcəkdir.

Türkmənistanın təbii qaz ehtiyatları ümumdünya ehtiyatlarının 9%-ni təşkil edir və bu göstərici ilə Türkmənistan dünyada Rusiya, İran və Qətərdən sonra dördüncü yeri tutur. İndiyədək əsas istehlak bazarı Rusiya olub, rəsmi Moskva türkmən qazının həcmi və qiymətini özü müəyyənləşdirirdi. Aşqabad bu asılılığa son qoymaq üçün əvvəlcə Çin və İran bazarına çıxdı, Azərbaycanın vasitəsilə isə indi əsas istehlak bazarı olan Avropaya çıxış imkanını əldə edir. Bu isə neft və qaz ixracatçısı olan Azərbaycanın həm də tranzit ölkə kimi əhəmiyyətini daha da artıracaq.

Nəqliyyat ölkələrimiz arasında mövcud əməkdaşlıq əlaqələrinin strateji istiqamətidir. Nəqliyyat sahəsində əməkdaşlıq həm bizim ölkələr, həm də qonşu dövlətlər üçün böyük perspektivlər açır. Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun, məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsi imkanlarını artıran müasir beynəlxalq dəniz limanlarının yaradılması layihələrini bir növ sinxronlaşdırıblar. Ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq regionda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla daha yüksək səviyyəyə çatacaq.

Regional əməkdaşlığın yeni perspektivləri. Azərbaycan, Türkmənistan və Türkiyə arasında, həmçinin Azərbaycan, Əfqanıstan və Türkmənistan arasında üçtərəfli əməkdaşlıq formatı artıq mövcuddur. Bu əməkdaşlıq konkret nəticəyə, biznes fəaliyyəti, iri infrastruktur layihələrinin reallaşdırılması üçün daha əlverişli şərait yaradılmasına yönəlib. Azərbaycan və Türkmənistan arasında memorandumun imzalanması Mərkəzi Asiyanın enerji resurslarını Avropa bazarına çıxaracaq Transxəzər layihəsinə "yaşıl işığ"ın yandırılması hesab oluna bilər. Hasil olunacaq qazın Azərbaycana və TAP vasitəsilə Avropaya çatdırılması gözlənilir və bu saziş Avropa İttifaqı ölkələri tərəfindən müsbət qarşılanacaq.

Siyasi sabitlik ölkələrin inkişafında strateji əhəmiyyət kəsb edir. Sabitlik olmadan inkişaf mümkün deyil. Sabitlik tərəqqiyə, rifaha, investisiyalara, ən iri beynəlxalq şirkətlərin diqqətinə və bununla da, ölkələrin beynəlxalq aləmdə rolunun, onların təsirinin möhkəmlənməsinə gətirib çıxarır.

Bu gün Türkmənistan və Azərbaycan nisbətən gənc müstəqil dövlətlərdir, beynəlxalq investisiyalar üçün cəlbedici ölkələrdir. Qlobal transmilli layihələr sayəsində sosial rifah və iqtisadi inkişaf sahəsində çox mühüm məsələlər öz həllini tapır. Ölkələrimiz investisiyalar üçün açıqdır. Xarici şirkətlər həm Türkmənistana, həm də Azərbaycana inamla böyük vəsait yatırırlar. Ona görə ki, onların vəsaitlərinin qorunacağına əmindirlər.

Ölkələrimizin inkişafı artıq qəbul olunmuş beynəlxalq faktdır. Türkmənistan və Azərbaycan beynəlxalq arenada tam əsasla müstəqil xarici və daxili siyasət barədə danışa bilən ölkələrdir. Bizim ölkələrimiz özlərini tamamilə təmin edən ölkələrdir. Azərbaycan və Türkmənistan istər beynəlxalq kreditlərdən, istər xarici köməkdən, istərsə də xarici təsirin hər hansı başqa formalarından və növlərindən asılı deyil. Bizim ölkələr öz milli, mənəvi, əxlaqi ənənələrinə möhkəm sadiqdirlər.

Ölkələrimiz arasında heç bir mübahisəli məsələ qalmayıb. Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması ölkələrimiz arasında etibarlı münasibətlərin formalaşmasına təkan oldu. Xəzəryanı ölkələr xoş məram, siyasi iradə nümayiş etdiriblər. İmzalanmış Konvensiya çoxillik uzun diskussiyalardan sonra enerji resurslarının mənimsənilməsi, habelə Xəzərin qorunması üzrə birgə fəaliyyət üçün yeni imkanlar yaradıb.

Beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin qarşılıqlı dəstək göstərməsi strateji əhəmiyyət kəsb edir. Azərbaycan və Türkmənistan beynəlxalq strukturlarda bir-birini fəal dəstəkləyir. Azərbaycan BMT Baş Assambleyasının Türkmənistanın əbədi neytrallığı barədə Qətnaməsinin həm müəllifi olub. Türkmənistan Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın fəaliyyətini hər zaman yüksək qiymətləndirib. Qoşulmama Hərəkatının Zirvə görüşünün, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitinin, həmçinin BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə məsələləri üzrə xüsusi sessiyasının keçirilməsi kimi ölkəmizin təşəbbüsləri Türkmənistan tərəfindən fəal dəstəklənmişdir.

Ölkələrimiz arasındakı əməkdaşlıq əlaqələri ümumi dəyərlər əsasında qurulub. Dostluq, qarşılıqlı dəstək və qarşılıqlı maraqların düzgün başa düşülməsi ruhunda işlərin aparılması uğurun təminatıdır. Bu səbəbdən əməkdaşlığın davamlılığına xidmət edəcək sazişin imzalanması əlamətdar və tarixi hadisədir.

Azərbaycan və Türkmənistan arasında mövcud əlaqələr müsbət dinamika ilə inkişaf edir. Son 3 ildə Türkmənistan və Azərbaycan prezidentlərinin 5 qarşılıqlı səfəri olub. Bu səfərlər çərçivəsində 50-dən çox sənəd imzalanıb. Qarşılıqlı münasibətlərin bütün tarixi ərzində 100-dən çox sənəd imzalanıb, onların yarısı son 3 ildə imzalanıb. Ölkələrimizin həm tarixi, həm də mədəni baxımdan oxşarlığı, ortaq köklərimiz, ortaq dilimiz, ortaq dinimiz və bir sıra digər mövcud sosial-mədəni təzahürlərin potensialını səmərəli əməkdaşlığa transformasiya edə bilmişik.

Yanvarın 21-də imzalanmış saziş Xəzərin karbohidrogen resurslarının mənimsənilməsində yeni səhifədir. Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə, xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaqdır.

Qalib sərkərdə, qətiyyətli lider

Vətən müharibəsi Xalq və Dövlət, Xalq və Prezident birliyini, sevgisini, Ordumuzun yenilməzliyini nümayiş etdirdi. 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının yurd, torpaq sevgisinin işğalçıya dərs vermək təsəvvürünün örnəyidir. Qarabağın işğaldan azad edilməsi, Prezidentin uzun illər işğal altında qalan torpaqlara tarixi səfərləri və onun yol boyu söylədikləri bu tarixi dönəmin yeni mərhələsinə çevrildi. Xalq, Ali Baş Komandan və Ordu birliyində reallaşan bu qələbə günümüzün qəhrəmanlıq salnaməsidir.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva və qızları Leyla Əliyevanın 14 yanvar 2021-ci il səfəri özlüyündə tarixi bir səfərdir. Müharibənin gedişi zamanı verdiyi müsahibələr və çıxışlar çox əhəmiyyətli idi, tarixi gerçəkliyi və həqiqətləri dünyaya bəyan etməklə reallığı əks etdirirdi. BMT-nin, ATƏT-in, Minsk qrupunun otuz ildə edə bilmədiklərini Ali Baş Komandan etdi, Müzəffər ordumuz bu mühüm tapşırığın öhdəsindən gəldi, məğlub sözünü üzərimizdən götürdü, Azərbaycan xalqına Qələbənin şirin dadını yaşatdı. Azğınlaşmış düşmən tərəfindən dağıdılmış şəhərlər, qəsəbə və kəndlər, viran edilmiş evlər, abidələr və s. haqqında verilən bilgilər təkcə bu günün reallığı baxımından deyil, həm də tarix anlamında dünyaya ünvanlanmış reallıqlar idi. Onu da xüsusilə diqqətə çatdırmaq lazımdır ki, bütün bunları dünya görür, nələrin baş verdiyini etiraf etməsə də, ancaq anlayırdı...

Qalib Sərkərdənin, qətiyyətli liderin tarixi səfərinin diqqətçəkən məqamları, verdiyi tapşırıq və tövsiyyələri, azad olunmuş ərazilərdə böyük quruculuq işləri aparmağa qərar verməsi perspektivləri, orada görüləcək işlərin dönməzliyini, fəaliyyət proqramının möhtəşəmliyini aydınlaşdırdı.

Füzuli-Şuşa yolu, Füzulidə hava limanının təməlinin qoyulması və mərasimdəki çıxışı, Ağdama səfəri və gələcəyə yönəlmiş konseptual fikirləri, 15 yanvar 2021-ci ildə hərbçilər qarşısında dedikləri ciddi perspektivlərin olacağından xəbər verdi, yeni layihələrin başlanğıcı oldu.

Tarixi səfərlərində diqqətçəkən məqamlardan biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şuşa şəhərində olması idi. Prezidentin Şuşanı Azərbaycanı mədəniyyət paytaxtı elan etməsi təqdirəlayiq bir hadisəyə çevrildi. Şuşa öz tarixi yaddaşı, əslər boyu formalaşdırdığı təsəvvür, zəngin mədəniyyət örnəkləri bunu deməyə əsas verir. Prezident İlham Əliyev Şuşaya gedən yolda xüsusi olaraq dedi ki, mən qələbə yolu ilə gəlmişəm. Qəhrəman Ordumuz düşmənə gözlənilməz sarsıdıcı zərbə vuraraq Daşaltını azad edib Şuşaya girmişlər. Düşmən buradakı tarixi Azərbaycan xalqına məxsus tarixdini abidələri dağıtmış və dəyişdirilməsinə cəhdlər etmişdir.

Şuşa şəhəri işğaldan azad olunandan sonra burada Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu müvafiq layihələrə start vermişdir. Azərbaycan güclü dövlət kimi işğaldan azad edilmiş torpaqlarımıza həyatı qaytarmaq, bu əraziləri dirçəltmək əzmindədir. Dövlətimizin başçısı İlham Əliyev vurğulayıb ki, bizim əsas diqqətimiz azad edilmiş torpaqlara olmalıdır və bu sahədə ilkin infrastruktur layihələrin icrası artıq başlanıb.

Cəlil Baxşıyev,
Lerik RİH-in birinci müavini YAP Lerik Rayon Təşkilatının sədri

Azərbaycan xalqına bu tarixi Zəfəri qazandıran əsgərlərimiz Ulu Öndər Heydər Əliyev məktəbinin, İlham Əliyev idarəçiliyinin yetişdirdiyi gənclərdir. Bu iki mühüm amil əslində həm də mili həmrəyliyimizi təmin edən komponentlərdir. 2003-cü ildən sonra yeni idarəçiliyin tətbiq olunması ilə ölkəmizdə yeni mənəvi və intellektual əsaslarda yeni nəsil yetişdirildi. Bu nəsildə vətənpərvərlik, cəsurluq, mənəvi dəyərlərimizə sahib çıxmaq hissləri ilə bağlı idi. Məhz həmin nəslin nümayəndələri, 2020-ci il Vətən müharibəsində iştirak edən 25-32 yaşlı gənclər bu haqq savaşının taleyini müəyyən edərək düşmənə tarixi dərs verdilər. Gənclərlə yanaşı, yaşlılar, orta nəslin nümayəndələri də eyni fədakarlıqla Vətən müharibəsində tarixi Qələbəmiz üçün əllərindən gələni etdilər. Bu isə əslində milli birlik və bərabərliyimizin, millət olaraq Ali Baş Komandanımızın ətrafında yumruq kimi birləşməyimizin əsas göstəricisi idi.

Sevindiricidir ki, son bir neçə ay ərzində Azərbaycan Respublikasının həyatında çox müsbət dəyişikliklər baş verib. Sözün həqiqi mənasında Azərbaycan tarixinin yeni mərhələsini yaşamaqdayıq. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad etdi. Azərbaycan 30 ildən sonra, ötən il noyabr 10-dan etibarən qalib dövlət statusuna nail oldu. Bu, hər bir Azərbaycan vətəndaşı üçün qürurvericidir. Bütün bunlar Yeni Azərbaycan Partiyasının qarşısında duran vəzifələrə öz təsirini göstərir. YAP müharibə dövründə üzərinə düşə vəzifələri layiqincə yerinə yetirib. Bundan sonrakı quruculuq dövründə də qarşıda duran əzəmətli vəzifələri uğurla yerinə yetirəcək, aparıcı partiya missiyasına sadiq qalacaq.

Qışa vaxtında hazırıq

Regionların sosial-iqtisadi inkişafi Dövlət proqramına uyğun olaraq Lerik rayonunda yol infrastrukturunun yenilənməsinə, bununla da iqtisadi-sosial inkişafın sürətlənməsinə diqqət artmışdır. Bu, son illərdə dövlətin dağ rayonuna böyük diqqət və qayğısında özünü aydın göstərir.

52 saylı Yol-İstismar MMC-nin sədri Elxan Əliyev rayonun yol-infrastrukturunda qışa necə hazırlıq görülməsi ilə əlaqədar "Lerik" qəzeti redaksiyasını məlumatlandıraraq demişdir:

- Müasir dövrdə iqtisadi, sosial və mədəni inkişafı yeni təkmilləşdirilmiş yol infrastruktursuz təsəvvür etmək çətindir. Ona görə də yeni çəkilmiş asfalt örtüklü, müasir görkəmli yolları daim diqqət mərkəzində saxlamağımız ən ümdə vəzifəmiz, xalq və dövlət qarşısında borcumuzdur.

Həmişə olduğu kimi, yollarımızda müxtəlif təyinatlı avtomobillərin fasiləsiz hərəkəti, yolların daim işlək vəziyyətdə olması, nəqliyyat vasitələrinin intensiv, rahat və təhlükəsiz hərəkətinin təmin edilməsi əsas vəzifəmizdir. Bu vəzifəni hər gün yerinə yetirir, qış aylarında havaların kəskinləşməsi ilə əlaqədar bütün işçi qüvvələrini, maşın və mexanizmləri səfərbərliyə almışıq. Yolları qar örtüyündən təmizləmək üçün avtoqreyder və ekskavator- yükləyici işlək vəziyyətə gətirilmişdir. Avtomobil yollarında əsas zəruri sahələrdə, eniş və yoxuşlarda (sürüşkən yoxuşlarda) sürüşmənin qarşısını almaq məqsədilə 50 kub.metr qum və 6 ton tezniki duz tədarük edilmişdir. Respublika əhəmiyyətli Lənkəran-Lerik avtomobil yolunun 43-45, 47-49, 51-53, 54-55-ci km sahələrində yol kənarlarına texniki duz qarışığı tökülmüşdür.

Qışa hazırlıq tədbirlərində baş mexanik Əminağa Fətullayev, avtoqreyderçi Eldar Ağayev, Tamerlan Hənbəmov, yol ustası Bəkir Vəliyev, ekskvator-yükləyici Elvin Bəndiyev, yol təmirçiləri Əziz Nəzərov, Bulud Hüseynov, Əlizəmin Baxşıyev, Fuad Qənbərov fəal iştirak edirlər.

Qış mövsümündə şose yollarını daim nəzarətdə saxlayacağıq.

"Lerik"

Gündən-günə inkişaf

Bu il yanvarın 6-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformat müşavirədə il ərzində ölkəmizdə bütün sahələrdə əldə olunan fərəhli nəticələr və qarşıda duran mühüm vəzifələrlə bağlı dəyərli fikir, təklif və mülahizələr səsləndirilib.

Fərəhli haldır ki, son illər ölkəmizdə təkcə neft-qaz sektoru deyil, qeyri-neft sekoru da sürətlə inkişaf edir. Ötən il Azərbaycanda qeyri-neft sənayesi 11 faizdən çox artıb. Torpaqlarımızın işğaldan azad olunması qarşıdakı illər ərzində kənd təsərrüfatı məhsulları istehsalını xeyli artırmağa geniş imkanlar açmışdır.

Lerik Rayon Statistika İdarəsinin rəisi Nizaməddin Muradov "Lerik" qəzetinə məlumat verərək demişdir:

- Rayonumuz əsasən dağlıq relyefdə yerləşdiyindən əhalinin əsas məşğuliyyəti və gəlir əldə etdiyi sahə kənd təsərrüfatıdır. 2020-ci ilin məhsulu üçün rayon üzrə əkilmiş 2933.7 hektar sahədən 6686.5 ton taxıl, keçən ilin müvafiq dövrünə nisbətən 38.8 ton çox, 1446 hektar sahədən 18513.2 ton kartof, 929.3 ton çox, 322 hektar sahədən 4140.7 ton tərəvəz, 108.2 ton çox, 462.1 hektar sahədən 1202.9 ton meyvə, 29.5 ton az məhsul əldə edilmişdir. Buğda istehsalında hər hektardan məhsuldarlıq 23.9 sentner olmuşdur.

2021-ci ildə yanvar ayının

1-nə iribuynuzlu mal-qaranın sayı 38742 baş, keçən ilin müvafiq dövrünə nisbətən 300 baş çox, qoyun və keçilərin sayı 114048 baş, 1976 baş az olmuşdur. Təsərrüfatlarda diri çəkidə 5251 ton ət, keçən ilin müvafiq dövrünə nisbətən 24.9 ton az, 23653 ton süd, 1317 ton çox, 7436 min ədəd yumurta, 11 min ədəd çox, 220.7 ton yun istehsal olunmuşdur.

2021-ci il yanvarın 1-nə kimi bütün maliyyə mənbələri hesabına tikinti komplekslərində 2099.7 min manat məbləğində təmir-tikinti işləri həyata keçirilmişdir.

Gəlirlərin artması ilə yanaşı, əhalinin ticarət şəbəkələrindən aldıqları istehlak malları və onlara göstərilən xidmətlərin çeşidi və həcmi də artmışdır. 2020-ci ildə əhaliyə 117907.6 min manatlıq istehlak malları satılmış malları satılmış və pullu xidmət göstərilmişdir.

2019-cu il ərzində sahibkarlıq subyektlərində, digər sahələrdə 1586 nəfər rayon sakini işlə təmin edilmişdir ki, bunlardan da 1128-si daimi iş yerləridir.

Ümumilikdə 2020-ci ildə rayon Statistika İdarəsi tərəfindən rayonda fəaliyyət göstərən 194 hüquqi və seçməyə düşmüş 129 fiziki şəxslərin aylıq və rüblük hesabatlarının düzgün və vaxtında verilməsi əsasən təmin edilmişdir.

Fasiləsiz təbii qaz verilir

Məlumat üçün bildirirəm ki, Lerik şəhərində və ayrı-ayrı kəndlərdə 104 fərdi ev və 6 qeyri-əhali abonenti qazlaşdırılmışdır. 2020-ci il ərzində "Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı" çərçivəsində Lerik rayonu üzrə ümumilikdə 270 abonent olmaqla 3 yaşayış məntəqəsi Kıncıvo, Sipyəreğon və Bibiyanı kəndləri cari ilin dekabr ayının 23-30-dan təbii qazla təmin edilmişdir. Həmin kəndlərin qazlaşdırılması üçün 25 km müxtəlif diametrli orta və aşağı təzyiqli yerüstü və yeraltı paylayıcı yeni qaz kəməri, 61 ədəd siyirtmə, 2 ədəd qaz tənzimləyici şkaf quraçdırılmışdır. Abonentlərin təbii qaza olan tələbatın atması, əhali və qeyri-əhali abonentlərinin sayının artması (Lənkəran rayonunun 7 kəndi (1055 abonent) istismarımıza verilmişdir) olmuşdur.

Ülfət Bəbirov,
Lənkəran Regional Qaz İstismar İdarəsinin Lerik XS üzrə rəis müavini

Ötən il ərzində qaz sayğaclarına 2199 ədəd, o cümlədən dekabr ayında 275 ədəd plomb vurulmuş, 1359 ədəd, o cümlədən dekabr ayında 237 ədəd qaz sayğacı yenisi ilə əvəzlənmişdir.

Lerik XS üsrə ötən il ərzində "Təmiz Qaz" QSC tərəfindən aşkarlanmış 36 ədəd, daxili imkanlar hesabına aşkarlanmış 1346 ədəd qaz sızması gecikdirilmədən ləğv edilmiş, "104" çağrı xidmətinə il ərzində daxil olmuş 325 ədəd sifariş vaxtlı-vaxtında keyfiyyətlə yerinə yetirilmişdir. Xidmət sahəsinin ərazilərində il ərzində müxtəlif səbəblərdən dayaqlardan düşmüş 4955 p/m, qaz xətti dayaqları bərkidilməklə dayaqlar üstünə qaldırılmışdır. Daxili imlanlar hesabına ərazimizin müxtəlif sahələrində 26 ədəd qaz sayğacı həyətlərdən küçəyə çıxarılmışdır.

İl ərzində qaz sızmlarını aradan qaldırmaq məqsədilə istismara yararsız 415 ədəd qaz kranı (Lənkəran rayonundan Lerik XS-nin istismarına verilmiş 7 kəndində 325 ədəd) və 50 ədəd FQT yenisi ilə əvəzlənmişdir.

2020-ci ilin "Tədbirlər planı"na uyğun olaraq Lerik şəhərinin H.Aslanov küçəsində d-57 mm-lik 64 p/m, C.Şahiyev küçəsində d/57 mm-lik 163 p/m, daxili imlanlar hesabına Piran kəndində d-89 mm-lik 32 p/m. Rvo QPS də d-159 mm-lik 13 p/m, Relax istirahət mərkəzinin qabağında d-159 mm-lik 42 p/m Cəngəmiran kəndində d-89 mm-lik 10 p/m. Narbağı kəndində d-76 mm-lik 31 p/m, ümumilikdə 355 p/m müxtəlif diametrli qaz xətti çəkilmişdir.

Bu ilin payız-qız mövsümünə hazırlıqla əlaqədar XS-nin ayrı-ayrı ərazilərində müxtəlif diametrli 16 ədəd yeni siyirtmər və 2 ədəd yeni ŞQTM quraşdırılmışdır. Lerik şəhərinin müxtəlif küçələrində qaz kəmərlərini korroziyadan qorumaq məqsədi ilə 4000 p/metr qaz kəməri 500 kq boya ilə yenidən rənglənmişdir.

2021-ci il ərzində qaz təchizatının daha da yaxşılaşdırılması, qaz itkilərinin aradan qaldırılması, şəbəkənin qaz nəqletmə imkanlarının artırılması, abonentlərimizin təhlükəsiz və fasiləsiz təbii qazla təmin olunması məqsədi ilə bir sıra tədbirlər nəzərdə tutulmuşdur. XS-nin müxtəlif ərazilərində 2021-ci ildə görüləcək işlərin "Tədbirlər planı"nda kiçik diametrli boruların 350 p/m d-57 mm-lik boru ilə əvəzlənməsi və 150 ədəd qaz sayğacının həyət daxilindən küçəyə çıxarılması nəzərdə tutulmuşdur.

2021-ci ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar Lerik şəhərinin müxtəlif küçələrində qaz kəmərlərini korroziyadan qorumaq məqsədi ilə 4500 p/metr qaz kəmərinin boya ilə rənglənməsi nəzərdə tutulub.

Təbii qaz itkilərinin qarşısını almaqdan ötrü ötən dövrlərə nisbətən sərfiyyatı azalan abonentlərin qaz sayğaclarına yerində baxış keçirtməklə aşağı sərfiyyatı qeyd etməyən və yaxud qismən qeyd edən qaz sayğaclarını araşdırıb yeni qaz sayğacları ilə əvəz olunması qarşımızda duran əsas məsələlərdəndir.

Abonentlərin haqlı narazılığına səbəb ola biləcək problemlərin qabaqcadan həlli istiqamətində tərəfimizdən təxirəsalınmaz tədbirlər görülür. Halhazırda abonentlərimizə tələbata uyğun olaraq fasiləsiz təbii qaz verilir.

Daha iki kəndimizə mavi qaz verildi

Kıncvo, Sipyəreğon və Bibiyanı kəndlərinə mavi qazın verilməsi təmin edilib.

Sipyəreğon kəndində rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov kənd ictimaiyyətinin nümayəndələri görüşərək öncə kənd sakinlərini salamladı və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən Müharibəsində qazanılmış Zəfər bayramı, qarşıdan gələn bayramlar və təbii qazın verilməsi münasibəti ilə təbrik etdi. Qəbul edilmiş Dövlət Proqramlarının uğurla icra edilməsi nəticəsində Azərbaycanın hər bir bölgəsində olduğu kimi, rayonumuzda da geniş quruculuq-abadıq işlərindən söhbət açdı və Kıncvo (37 abonent), Sipyəreğon (48 abonent), Bibiyanı kəndinə (182 abonent) kəndlərinə mavi qazın verilməsi bunun bariz nümunəsi olduğunu bildirdi. Gələcəkdə rayonumuzun digər kəndlərinə də mavi qaz xətlərinin çəkilməsinin Dövlət Proqramında nəzərdə tutulduğunu, növbəlik əsasında qazlaşmanın davam edəcəyini diqqətə çatdırdı. Belə sosialyönümlü layihələrin reallaşması cənab Prezident respublikamızın hər bir bölgəsinə xüsusi qayğı və diqqət göstərdiyini bir daha sübut edir. Bu qayğı və diqqətə görə cənab Prezidentə və rayonumuzda bütün bu işlərin həyata keçirilməsində bizə dəstək olan hər kəsə öz dərin minnətdarlığımızı bildiririk.

"Azəriqaz" İstehsalat Birliyinin Lənkəran Regional Qaz İstismarı İdarəsinin rəisi Azər Musayev kənd sakinlərini qarşıdan gələn bayramlar və kəndə mavi qazın verilməsi münasibəti ilə təbrik etdi. Yeni istifadəyə verilmiş mavi qazdan səmərəli və ehtiyatla istifadə olunması ilə bağlı kənd sakinlərinə tövsiyələrini çatdırdı.

Kıncvo kənd sakini Cabirəli Məmmədov, Bibiyanı kəndindən olan Əmirxan Əzizov möhtərəm Prezident cənab İlham Əliyevə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.

Şəhidlik zirvəsini fəth etdi

Sentyabr ayının sonuna çox qalmamışdı. Hələ havalar da isti keçirdi, qızıl payız gəlməmişdi. Gizir Ramiq Tağıyev hərbi hissədə xidməti vəzifəsini uğurla yerinə yetirirdi. Gənc və təcrübəli komandirin tövsiyyələri onun karına çox gəlirdi. "Unutma ki, orduda əsas şərt nizam-intizamlı, cəsur və qorxmaz olmaqdır, daim öryənməkdir. Təlimdə nə qədər əziyyət çəksən, tər töksən, döyüşdə asan olar, qələbə qazanarsan... Düşməndən uzaq olsan da onu hissi etməli, duymalı, nə düşündüyünü bilməli, gücünü öyrənməlisən. Unutma ki, düçmən bizim torpaqlarımızı zəbt etsə də, ədalətsiz, hiyləgərdir, özgə yerdə özünü daim narahat hiss edir... Gec-tez qədim Qarabağı azad edəcəyik..."

Komandir Ramiqin xətrini çox istəyirdi. Buna səbəb onun əsl peşəkar kimi gözlənilən təhlükələrə həmişə hazır olması, Vətənin əsl müdafiəçisi ilə adını təsdiq etməsi idi...

Bir dəfə Ramiq təlim-məşq sınağından sonra komandirdən soruşdu:

- Komandir, düşmən lap azğınlaşıb. Biz nə vaxt hücuma keçib torpaqlarımızı azad edəcəyik?

Komandir üçün bu sual gözlənilməz olmadı. Ürəyinə dammışdı ki, işğala son qoyub torpaqlarımızı bütövləşdirməyə çox qalmayıb.

- Narahat olma, bu tezliklə

baş verəcək. Be asılıdır Ali Baş Komandanın əmr verməsindən. Həmişə əmrə, döyüşə hazır olmalıyıq...

- Biz hazırıq, komandir, silahınız pas atıb, yeyib-yatmaqdan artıq yorulmuşuq...

Komandir Ramiqi bağrına basdı, doluxsundu. Kövrəldiyini gizlətmək üçün üzünü yana çevirdi və qərargaha doğru addımladı...

...Vətən müharibəsinin başlanmasına az qalmışdı, Ramiqə doğma evinə baş çəkmək üçün icazə verdilər. O atası Teymur, anası Nargilə ilə, nənəsi Narıngül, dayısı Rasimlə, (o baş çavuş kimi Murovda hərbi xidmətdə olub, 98-ci ildə Ordudan tərxis olunub) dayısı Şəvəqqətlə onu çox sevən əmiləri Adil, Aslan, Fikrət, Rəsul və Xanışla, qonşusu Vəliağa müəllimlə, din xadimi Habillə görüşdü, çay süfrəsi ətrafında əyləşib şirin-şirin söhbətlər elədilər, olub-keçənləri xatırladılar. Hamı Ramiqə salamatlıq, uğurlu hərbi xidmət, eləobaya, ata-anaya başucalığı gətirməyi arzuladı. Ramiq deyilənlərə təbəssümlə cavab verdi... heç kəs bilmirdi, keç kəsin ağlına gəlmirdi ki, Ramiq bir daha o qapıdan girəməyəcək, doğmalarının, ailəsinin bütün arzularını, Vətən sevincini, ruh yüksəkliyini özü ilə aparacaq. O, babalarımızın ruhunu sevindirən, nənələri ovunduran olacaq, Birinci Qarabağ vüharibəsində şəhid gedənlərin qisasını alacaq, qələbə sevincini döyüş meydanlarında duyacaq, həqiqətin qalib çıxması, əsgər şərəfini ucalması üçün 23 yaşına qədəm qoyanda Vətənə qurban olacaq - təki torpaq düşmənin ayaqları altına sərilməsin, dil nalə çəkib fəryad etməsin, qollar göyə ucalıb gərilməsin...

...Ramiq düşməni peşiman edərək, məkrli hiyləsinə çatmağa imkan verməyən ərənlərdən oldu. Zəfər, Qələbə onunla birlikdə oldu. Bir də şəhadətə qovuşmuş cavan Ramiq heç vaxt qocalmış görünməyəcək. Qələbə ilində doğulanlara Ramiqin adı qoyulacaqdır...

İlahi, mənə səbir və dözüm ver! Yazdığın kağızlar bu iztitraba tab gətirmir! Qələm isə deyir: təsəllin olsun, yaz, yarat, şəhid yazıların olmasın boyat!

(Davamı var)

İdris Şükürlü

20 Yanvar şəhidlərinin xatirəsi böyük ehtiramla anıldı

20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

Həmişə dövlətə və dövlətçiliyə sadiq olan leriklilər qan yaddaşımıza əbədi həkk olunmuş, faciə və qəhrəmanlığı ehtiva edən 1990-cı ilin 20 Yanvar hadisələrini daim anırlar.

20 yanvar 2021-ci il tarixdə Lerik Rayon İcra Hakimiyyəti başçısı Rövşən Bağırov, icra hakimiyyəti başçısı aparatının əməkdaşları, hüquq-mühafizə orqanlarının, ictimai-siyasi təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri pandemiya ilə əlaqədar karantin qaydalarına uyğun olaraq məsafə saxlamaqla 20 Yanvar şəhidlərinə ehtiramlarını bildirmək üçün "Şəhidlər" abidə-kompleksinin önündə tər çiçəklər düzməklə hörmətlə xatirələrini yad etdilər.

"Lerik"

İstiqlal mübarizəsinə gedən yol

Hüseynbala Əliyev

XX yüzillik Azərbaycan xalqının taleyinə, tarixinə ən qanlı hadisələrlə, faciələrlə, misli görünməmiş soyqırımlarla yanaşı, müstəqillik və azadlıq uğrunda mübarizə, hünər və qəhrəmanlıq, milli oyanış və özünüdərk əsri kimi daxil olub. Azərbaycan tarixində həm qəhrəmanlıq, həm də faciə səhifələri bir-birini əvəz etmiş, nəsildən-nəslə qan yaddaşı və genlərlə ötürülmüşdür.

20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapmışdır. Heydər Əliyev yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək xalqla birlikdə olduğunu bildirdi. O, bu faciənin hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və o zamankı respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu bildirdi. Baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib, başda M.Qorbaçov olmaqla, Bakıda terror aktına rəvac verən hakimiyyət mənsublarını və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı işə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Ümummilli lider faciədə şəhid olanlardan danışarkən demişdir: "...Onlar bizim xalqımızın əsrlər boyu milli azadlıq, müstəqillik uğrunda tökdüyü qanlara qovuşmuş qanlardır, o gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

Azərbaycan xalqı sovet imperiyasının yürütdüyü repressiv siyasəti öz tarixinə və milli mənliyinə vurulmuş bir ləkə kimi görürdü. Ürəyi azadlıq eşqi ilə çırpınan Vətən övladları bu ləkəni öz qanları bahasına da olsa yumaq üçün ayağa qalxmışdılar, sovet imperiyasına qarşı etiraz səslərini ucaltdılar. Xalq şairi Bəxtiyar Vahabzadə o zaman demişdi: "Axı, heç kəsin ağlına gələ bilməzdi ki, qəlbi Vətən hissi ilə çırpınan, əli silahsız, özü günahsız olan bu atalar, analar, babalar, özünü dost kimi, qardaş kimi qələmə verən bir ordunun əlində qətlə yetirilsin".

Çox təəssüf hissi ilə qeyd edək ki, 20 Yanvar faciəsinin günahkarlarının adları məlum olsa da, bu bəşəri cinayətə hələ də beynəlxalq aləmdə lazımi siyasi-hüquqi qiymət verilməmişdir. Bu ədalətsiz mövqe xalqımızı hiddətləndirir. Sabiq SSRİ prezidenti M.Qorbaçov 1995-ci ilin aprel ayında Türkiyədə səfərdə olarkən 1990-cı il Yanvar qırğınından bəhs edərkən, "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımda ən böyük səhvim idi", - deyərək öz günahımı etiraf etmişdir. Bu etiraf heç bir halda onu məsuliyyətdən azad etmir.

"20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq, səhifəsidir. Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq. Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq" - deyən Azərbaycan Prezidenti, işğal edilmiş Qarabağın azadlığı uğrunda tarixə yeni imza qoyan Ali Baş Komandanın 20 Yanvar faciəsi barədə söylədiyi öyüdücü mülahizəsu bu qanlı hadisənin mahiyyətini və tarixdəki yerini çox dəqiq ifadə edir. Prezident İlham Əliyev son 18 ildə 20 Yanvar faciəsi qurbanlarının xatirəsinin əziz tutulması, şəhid ailələrinə və əlil olanlara dövlət qayğısı göstərilməsi ilə əlaqədar bütün zəruri tədbirləri gerçəkləşdirilmişdir.

Sonda fərəh hissi ilə bildirmək istərdim ki, 31 il əvvəl öz ağrılı həqiqəti ilə xalqımızı azadlıq mübarizəsi meydanına çıxarmış 20 Yanvarın qanlı tarix dərsləri 30 ildən sonra Azərbaycana şanlı zəfər qazandırdı. Bu qələbə ilə həm də şəhidlərimizin yerdə qalmış intiqamı alındı, azadlıq qurbanlarının nakam ruhları sevindi...

Xalqın azadlıq arzusu sarsılmadı



Habil Əliyev

Öz tapdanmış haqqını tələb edən, azadlığına, suverenliyinə qovuşmaq istəyən, mövcud problemləri siyasi yolla həll etmək üçün əməli addımlar atmaq əvəzinə sovet hökuməti ordusunu xəbərdarlıq etmədən Bakıya yeritdi. Başda Mixail Qorbaçov olmaqla terror aktı həyata keçirildi. Təpədən-dırnağadək silahlanmış, müasir döyüş texnikası ilə təmin olunmuş sovet ordusunun bölmələri xalqa qarşı görünməmiş cinayət törətdi, dinc əhaliyə divan tutdu, küçələr azadlıq fədailərinin al qanına boyandı...

Xaqımızın qan yaddaşına həkk olunmuş ağrılı rəqəmləri xatırlamaq istərdim. 20 Yanvarda SSRİ rəhbərliyinin "xeyir-duası" ilə 66 minlik qoşun hissələri Bakıya yeridildi. Bu qoşun hissələrinin tərkibində erməni mənşəli əsgər və zabitlər, həbsxanadan çıxarılmış məhbuslar Bakıda hər cür vəhşiliklər törətməyə tam hazırlanmışdılar. Heç kəs inanmırdı ki, rus ordusu dinc əhaliyə atəş atacaq, nəinki Bakıda, bir neçə rayonda da qətliam törədəcək, həbslər həyata keçirəcək. Əlləri qana batmış cəza dəstələri 147 insanın qətlinə, 744 nəfərin ağır xəsarət almasına, 841 nəfərin qanunsuz olaraq həbs edilməsinə, 200 mənzil, ev, şəxsi və dövlət əmlakının dağıdılmasına rəvac verərək bəşəri cinayət törətdilər. Alma-Ata, Tbilisi, Vilnüs hadisələrindəki qətliamlar Azərbaycandakı qədər qanlı və geniş miqyaslı olmayıb. Keçmiş SSRİ prezidenti M.Qobaçov Tbilisi və Vilnüs hadisələri ilə əlaqədar peşiman olduğunu bildirib, gürcü və litva xalqlarından üzr istədiyi halda, Azərbaycanda baş vermiş hadisələrlə əlaqədar eyni addımı atmadı.

Son 31 ildə ilk dəfədir ki, 20 Yanvar faciəsinin növbəti ildönümünü xilaskar Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi aıtında müzəffər Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində tarixi zəfərə imza atdığı bir zamanda qeyd edirik. O tarixi qələbə ki, Qarabağda işğal altındakı bütün ərazilərimizi öz əbədi sahibinə, - Azərbaycan xalqına qaytarmışdır.

20 Yanvar Azərbaycan xalqının milli-azadlıq hərəkatının daha da yüksəlməsinə, Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına yol açdı. Milli azadlıq hərəkatı siyasi reallığa çevrildi. Tarix bir daha göstərdi ki, dövlətçilik ənənələrini yaşadan xalqımızı müstəqillik yolundan döndərmək, qorxutmaq, susdurmaq mümkün deyil. Mübarizə tariximizin təbliği yeni nəsildə milli vətənpərvərlik, dövlətçilik hisslərinin tərbiyə olunmasına, milli kimlik məfkurəsinin yüksəlməsilə güclü təkan verdi.

Şəhidlərin əbədiyyətə qovuşduğu məkana ümummilli liderimiz Heydər Əliyevin verdiyi qiymət bu müqəddəs ziyarətgahın tarixi, siyasi, tərbiyəvi, həmçinin milli-mənəvi dəyərini diqqətə çatdırır: "Xalqımızın tarixində çox əzəmətli, qiymətli abidələr var. Ancaq Şəhidlər xiyabanı, XX əsrin sonunda Azərbaycan xalqının milli azadlığı uğrunda qurban vermiş şəhidlərinin məzarları Azərbaycan Respublikasının torpağının ən müqəddəs yeridir və ən qiymətli abidəsidir".

20 Yanvar hadisələri xalqın iradəsinin və azadlıq arzusunun sarsılmazlığını sübut etdi. Yanvar faciəsinin tarixi dərsləri heç zaman unudulmayacaq.

Zirvəyə ucalan əsgər

O gün atası Balaxan Quliyevin fərəhli çağları idi. Hamı onu oğlu Firdovsinin ali məktəbə qəbul imtahanında 500 bala yaxın nəticə göstərməyinə görə təbrik edirdi. Balaxan kişi sevindikcə oğlu Firdovsinin məktəb illəri onun gözlərinin önünə gəlirdi. Axı, heç bir uğur asanlıqla qazanılmır...

Firdovsi Lerik rayonunun Dico kəndində 1997-ci ilin mart ayında dünyaya gəlib. Burada orta məktəbi bitirib. Ona mərhum müəllim Hacıməmməd Quluzadə, Sahil Şirvanov kimi təcrübəli müəllimlər dərs dedilər. Onlar Firdovsi kimi çalışqan, elmə-biliyə maraq göstərən, ədəb-ərkan əxz edən şagirdlərə Vətəni sevməyi, yurda sahib olmağı öyrətdilər. Firdovsi orta məktəbi Tikəband kənd tam orta məktəbində davam etdirdi. O qara, çovğuna, yağışa, küləyə baxmayaraq hər gün altı kilometr yol qət edib Tikəbanda - məktəbə, doğma müəllimlərdən elm-bilik almağa gedirdi.

Nəhayət, məktəbi yüksək nəticələrlə başa vurdu. 1915-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsinə daxil oldu. Elə ilk gündən dərslərə ciddi yanaşdı, kitablardan ayrı düşmədi. Çalışqanlığı, mehribanlığı, dostluqda sədaqəti, Vətənə məhəbbəti ilə fərqləndi.

1919-cu ildə ali məktəbi bitirmək üzrə idi. Məqsədi bir vaxtlar təhsil aldığı təhsil ocaqlarında dərs demək idi. Ancaq sən saydığını say, gör fələk nə sayır. Firdovsi dövlət imtahanlarını verməmiş, ərizə yazaraq könüllü cəbhəyə yola düşdü. Onun cəbhə yolları Tovuz istiqamətindən başladı. Azərbaycan əsgərinin düşmənə cavabı Firdovsini daha da ruhlandırırdı. Sonra azğınlaşmış düşmən Qarabağda, Azərbaycanın digər sərhədyanı rayonlarında geniş miqyaslı hərbi əməliyyatlara başladı, dinc sakinlərə, mülki obyektlərə zərbə endirdi. Belə bir məqamda Firdovsi Quliyevin daxil olduğu bölmə Tərtər istiqamətində irəliləyir, düşmənə qarşı vuruşan qəhrəman və cəsur əsgərlər qorxu nə olduğunu bilmir, hamı inanırdı ki, bu əks-hücum 90-cı illərdəkinə bənzəmir. Düşmən güclü istehkamlara, müdafiəyə malik olsa da, Azərbaycan Ordusunun bölmələri qarşısında tab gətirmir və qəti qələbə uğrunda son nöqtəni qoyacaqlarını yəqin etmişdi. Düşmən düşməndir. Hara gəldi mərmi, güllə atır, Azərbaycana zərər vurmaq, onun mülki obyektlərini dağıtmağa çalışır. Azərbaycan əsgəri mərddir, qorxmazdır, düşmənə sarsıdıcı zərbələr vurur.

Sentyabrın 30-u idi. Lerikə bir neçə acı xəbər gəlmişdi. Onlardan biri də Firdovsi Quliyevin şəhid olması xəbəri idi. El - oba, hökümət nümayəndələri yığışıb şəhid Firdovsini böyük ehtiramla dəfn etdilər, onun məzarını gül dəstələrinə, Azərbaycanın üçrəngli bayrağına bükdülər, şəhidə Allahdan rəhmət dilədilər.

Firdovsinin böyük qardaşı Həşimi ovundurmaq olmurdu. Elə hey göz yaşı tökür, şəhid qardaşını çağırırdı. Tikəband kənd Ərazi İcra nümayəndəsi Bəyəli Bədəlov, Əmrulla Şirvanov, Tofiq Hacıyev, Xəzair Şahmarov, müəllimi Sahil Şirvanov, Rəcəb Şirvanov, Ağaxan Quliyev, jurnalist dostum Əliməmməd Ağazadə şəhid Firdovsi barədə xoş sözlər dedilər. Bəyəli Bədəlovun dəfn mərasimində göstərdiyi təşkilatçılığı xüsusilə qeyd olunmalıdır. Adları qeyd olunanlar dedilər ki, Firdovsi çox vətənpərvər, cəsur, qorxmaz və igid bir əsgər kimi təkcə ata-anasının yox, bütün el-obanın başını ucaltdı, o bir daha Vətəni çox sevdiyini göstərdi, ölümü ilə ölməzlik qazandı.

Yeri düşmüşkən fərəh hissi ilə qeyd edək ki, Firdovsinin məzarı onun əmisi şəhid Mustafa Quliyevin məzarı yanındadır. Mustafa barədə mətbuatda, kitablarda yazılıb, şəhidin xatirəsi unudulmur. Biz Firdovsinin şəhid olmasının üçüncü günü Dico kəndində olarkən beş gəncin - Firdovsinin tələbə dostlarının həyətə girdiyini gördük. Onlar çox pərişan görünürdülər. Sevman Baxşıyev, Taleh Kərimov, Elməddin Səfərov, Mircavad Ağalarov, Seymur Alisgəndərov Astara, Ağdam, Tovuz, Neftçala, Ağdaş rayonlarından gəlmişdilər. Hər birinin ürəyi sözlə dolu olsa da qəmli görünürdülər. Onların hər biri Firdovsinin qəhrəmanlığını təkrarlamağa hazır idi...

Dico kənd sakini, Balaxan kişinin dayısı oğlu Rəcəb Şirvanov dedi:

- Firdovsi Dico kəndinin üçüncü şəhid oğludur. Qarabağ qaziləri Habil Şahbazov , Fəxrəddin Ağayev, Mais Həndəmov, şəhid Emin Qurbanov şəhid Mustafa Quliyevlə fəxr edirik. Onlar bizə başucalığı gətiriblər. Şəhid olsun, ya qazi - fərqi yoxdur, onların hər biri ən xoş sözlərə layiqdir. İşğal altında olan Qarabağ torpaqları düşmən tapdağından azad olduqca, şəhid ruhları şadlanlır, xalqın, el-obanın fərəhi, sevinci artır...

Azərbaycan Respublikasının Prezidenti xalqa müraciətində şəhidlərə xitabən deyib: "...Biz bu qələbəyə görə onlara borcluyuq. Onlar torpaqlarımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır". Bu, dövlət başçımızın şəhidlərə, onların ruhuna böyük ehtiramı ifadə edir. Diconun şəhid oğulları da bu ehtiramla əhatələnib...

Mənəvi varlığımızı, iç dünyamızı, şəhadətimizi daim müşayiət edən, hisslərimizə, düşüncələrimizə, hərəkətlərimizə yön verən ruhumuz daim oyaqdır, hərəkətdədir, bitmir, tükənmir. "O ruh ki, heç vaxt doğru bildiyi yoldan sapmır, təslim olmur, sadəcə dözür, səbr edir və bir gün kükrəyərək azadəliyinə qovuşur..." (Həmidə Nizamiqızı).

Tarix yazan, bizi yeni tarixə, təşnə olduğumuz arzumuza, istəyimizə qovuşduran, ölümüylə yaşadan şəhidlər ən kamil mənəviyyata, Allah dərgahında ən uca məqama yüksələnlərdir. Neçə-neçə on illər ötsə də onların işıqlı ömrü sonrakı nəsillər üçün nurlu, unudulmaz ömür kimi yaşayır. Şəhidlər əbədiyaşar bir ömür keçiblər. Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda şəhid olanları can ortağımız bilirik. Yəqin ki, Firdovsinin də, silahdaşlarının da ruhu Qarabağda - işğaldan azad olunmuş məmləkətin səmasında uzun müddət gəzib-dolaşacaq, zirvələrdə ucalan üç rəngli bayrağımızı görüb, təsəlli tapacaq.

...Rəcəb kişi o vaxt yanılmamışdı. 44 günlük müharibədə bizi yaşadan Azərbaycan Ordusu, Ali Baş Komandan İlham Əliyevə inam artmışdı. Birliyimiz qarşısında düşmən tab gətirə bilmədi, həm hərbi, həm də diplomatik cəbhədə birləşdi.

Məğrur Azərbaycan əsgəri Firdovsi Quliyev Prezidentin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib. Bu medallar Qələbənin rəmzi kimi Firdovsinin yarımçıq ömrünə günəş tək işıq saçır...

İdris Şükürlü

Tanınmış jurnalist



Lerik rayon ictimaiyyətinə şəxsiyyəti, ictimai-siyasi, publisistik fəaliyyəti yaxşı bəlli olan Cabbar Musaxan oğlu Zülfiyev 73 yaşında dünyasını dəyişmişdir.

Cabbar Zülfiyev 1948-ci ildə Mastail kəndində anadan olmuşdur. O, 1967-ci ildə Lənkəran Kənd Təsərrüfatı Texnikumunu, 1977-ci ildə isə ADU-nin (indiki BDU) jurnalistika fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1965-ci ildən başlamışdır: Lerik RPK-də makinaçı və statist işləyib. 1970-ci ildən isə jurnalistika ilə məşğul olub. "Bolluq uğrunda" (indiki "Lerik") qəzetində ədəbi işçi, məsul katib, redaktor müavini olub. 1992-1995-ci illərdə Lerik RİH-in ərazisi idarəetmə orqanları şöbəsinin müdiri, rayon Mülki Müdafiə qərargahının rəisi olub. 1996-cı ildən yenidən mətbuat sahəsində işləyib: "Lerik" qəzetində xüsusi müxbir, sonra redaktor müavini.

Cabbar Zülfiyev tanınmış jurnalist olub. Onun yaddaqalan oçerk, felyeton və müxtəlif janrlı yazıları "Lerik" ("Bolluq uğrunda") qəzeti ilə yanaşı, "Ulduz", "Azərbaycan qadını" "Kənd həyatı" jurnallarında, "Kommunist", (indiki "Xalq qəzeti"), "Azadlıq", "Çağ", "Azad təfəkkür" qəzetlərində çap olunub.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü idi. Maraqlı mənsur şeilərin, hekayələrin müəllifi idi, poeziya həvəskarı idi.

C.M.Zülfiyev rayonun ictimai-siyasi həyatının fəal iştirak edirdi. 10 il MİHİ Lerik Raron Komitəsinin sədri, Livədirqə, Kirəvud, Noda kənd sovetlərinin deputatı, 1999-2004-cü illərdə Mastail bələdiyyəsinin sədr müavini və sədri seçilmişdir.

"Rəşadətli əməyə görə" medalı və AJB-nin Fəxri fərmanı ilə təltif olunub.

C.Zülfiyev BAXCP Lerik rayon şöbəsinin sədri idi, milli-azadlıq hərəkatında fəal iştirak etmişdi. 78 saylı Lerik-Lənkəran seçki dairəsindən Milli Məclisə deputatlığa namizəd göstərilmişdir. O, bir oğul, dörd qız atası, doqquz nəvə sahibi idi.

C.Zülfiyevin işıqlı xatirəsi onu tanıyanların qəlbində uzun müddət yaşayacaqdır.

"Lerik"

Ömrün çırağı sönmədi...



Daha bir üzücü xəbər yayıldı Lerikə: öncə qələm ustadı Seyfəddin Səbayel, sonra isə şair Nurəddin Mirzəxanlı haqq dünyasına qovuşdular...

Tanınmış hərbçi-şair, yaxın dostumuz, haqqıədaləti həmişə uca tutan Nurəddin Təris oğlu Mirzəxanlı 1947-ci il sentyabrıpn 18-də Lerik rayonunun Soru kəndində anadan olub. O, 1965-ci ildə Lerik 1 saylı 11 - illik məktəbi bitirmişdir. 1980-ci ildə ADU-nun filologiya fakültəsini, 1988-ci ildə Marksizm-Leninizm Universitetinin iki illik fəlsəfə kursunu fərqlənmə diplomu ilə bitirmişdir.

Nurəddin Mirzəxanlı 1992-ci ildə Azərbaycanın Milli Ordusunda xidmətə başlamış, müxtəlif hərbi hissələrdə, eləcə də, AR Müdafiə Nazirliyinin Mətbuat Xidmətində hərbi xidmətdə olmuşdur. 2003-cü ildə yaşıyla əlaqədar o, Naxçıvanski adına Hərbi liseydən kapitan rütbəsiylə istefaya göndərilmişdir. 1984-cü ildən başlayaraq dövrü mətbuatda müntəzəm çıxışlar etmiş, yaddaqalan şeirləri "Azərbaycan" "Ulduz", "Literaturnıy Azerbaydjan" jurnallarında, "Ədəbiyyat", "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi" "Vışka", "Bakinskiy raboçiy", "Lerik" və digər ədəbi orqanlarda çap olunmuşdur. 2006-cı ildə Dövlət Sərhəd Xidmətinin elan etdiyi "Vətən sərhəddən başlanır" respublika ədəbi-bədii qiraət müsabiqəsində "Sərhədçi düşüncələri" poeması birinci yerə və pul mükafatına layiq görülmüşdür. "Yenə yazdı, bənövşəm" (2004), "Mən əsgər atasıyam" (2007), "Cənub çiçəkləri" (2020) və "Vətəndən nigaranam" (2015) kitablarının müəllifidir. "Ömrümün söz butaları", "Vaxtın töhfələri" kitabları çapa hazırlanır.

N.Mirzəxanlı 1994-cü ildən AJB-nin üzvü, "Qızıl qələm" media mükafatçısı, istefada olan kapitan, Qarabağ müharibəsi veteranı, AYB-nin hərbi-vətənpərvərlik komissiyasının üzvü idi. Lerikdə yubileyi keçirilmiş, mətbuatda ədəbi-tənqid onun barəsində müsbət fikirdə olmuşdur.

Tanınmış şair, vətənpərvər ziyalı, incə qəlb sahibi N.Mirzəxanlı yaşasaydı çox əsərlər qələmə alardı.

2021-ci il yanvarın10-da dünyasını dəyişmiş şairə Allahdan rəhmət diləyirik.

"Lerik"

O, səba yelləri tək əsdi...

Seyfəddin Əlifağa oğlu Ağamalıyev 1941-ci ildə Kələxan kəndində ziyalı ailəsində həyata göz açıb. O, 1963-1966-cı illərdə hərbi xidmətdə olmuş, sonra bir müddət ayrı-ayrı sahələrdə çalışmışdır.

Seyfəddin Əlifağa oğlu 1972-ci ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutuna qəbul olunmuş, 1976-cı ildə oranı uğurla bitirmişdir. 1976-cı ildə Moskvada "Qırmızı Oktyabr" istehsalat birliyində informasiya şöbəsinin baş redaktoru təyin edilmiş, 1982-ci ilə kimi tutduğu vəzifədə çalışmışdır. Sonra isə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında redaktor-ssenarist kimi yaradıcı fəaliyyətini davam etdirən Seyfəddin (artıq o bu təxəllüslə tanınırdı) 1989-cu ilə qədər bu vəzifədə çalışmışdır. Həmin ildə doğulduğu Kələxan kəndinə qayıdır və 2011-ci ilə qədər Qosmalian kənd orta məktəbində müəllim işləyir.

Seyfəddin 70-ci illərin ədəbi nəslinə məxsus şairlərdəndir. Əsərləri "Azərbaycan" və "Ulduz" jurnallarında çap olunmuş, ilk şeirlər kitabı 1980-ci ildə "Gənclik" nəşriyyatında "Arxadan inci axırdı" adı ilə nəşr olunmuşdur. Sonra şairin "Yazıçı" nəşriyyatı tərəfindən "Gözlə qaş arasında" (1983), "Nağıldan sonra" (1984), "İki sarıbuğda sünbülü" (1989) kitabları işıq üzü görmüşdür.

Uzun müddət ədəbi yaradıcılığına fasilə verən Seyfəddin Səbayel nəhayət, 2012-ci ildə "Mənə yaşamağı öyrətmə" adlı kitabını oxuculara təqdim etmişdir.

Qələmini həm nəsr, həm də nəzm sahəsində sınağa çəkmiş S.Səbayel 81 yaşında işıqlı dünyaya vida etmişdir.

İstedadlı şair, səmimi insan, etibarlı dost az yazmaqla çox mətləbləri ehtiva edən, qələm və sözün gücünü bilən, doğma yurda, onun təbiətinə qəlbən bağlanan, insanları sevən Seyfəddin Səbayel səba yelləri kimi əsdi, kitabları, sözü-söhbəti bizə əmanət qaldı.

Əziz dost, yerin uca məqamda olsun, ruhun şad olsun.

"Lerik"



Muradəli Hüseynov,
Bradi kəndi

Qələbən mübarək!

Düşmən işğalında saxlanan doğma torpaqlarımızın cənab Ali Baş Komandan, Müzəffər sərkərdə İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş Qarabağda Qələbə münasibətilə.

Səngərlər dağıldı, sərhəd silindi,
Düşmən rüsvay oldu, məğlub edildi.
Cəsur əsgərlərin qalib bilindi,
Gözün aydın olsun, Azərbaycanım!

Ağrılı günlərin qaldı arxada,
Ordumuz dərs verdi faşist-cəllada.
Zəfərin yayılıb bütün dünyada,
Qələbən mübarək, Azərbaycanım!

Analar gözündə sevinc göz yaşı,
Bacı qucaqlayır, öpür qardaşı.
Düşmənə dərs oldu Şuşa savaşı,
Başını uca tut, Azərbaycanım!

Oldu torpaqların düşməndən azad,
Neçəsin söyləyim, sayım adbaad.
Ordum zəfər çaldı, xalqım oldu şad,
Öyün, ana yurdum, Azərbaycanım!

Qəlblərdə yurd salan həsrət silinir,
Vətən libasını sevincdən geyir.
Cəbrayıl azaddır, xalqım sevinir,
Sənə alqış olsun, Azərbaycanım!

Qürur, qələbə var, doğma elimdə,
Bayrağım ucalır şad Füzulimdə.
Qələbə nəğməsi xalqın dilində,
Yox olsun düşmənin, Azərbaycanım!

Uğur var, zəfər var Azərbaycanda,
Bayrağım sancılıb şən Zəngilanda.
Vətənə sevgi var torpaqlarımda,
Zəfərin mübarək, Azərbaycanım!

İşğaldan edildi Qubadlım azad,
Gülür torpağımda azad, şən həyat.
Yaşayır insanlar firavan-rahat,
Sevin əziz yurdum, Azərbaycanım!

Gözü aydın olsun, doğma ölkənin,
Alınır qisası hər bir şəhidin.
Bu an dağıdılan böyük Gəncənin,
Dəyiş qəm libasın, Azərbaycanım!

Bayrağım Şuşada parlayır bu gün,
Vətən qələbəni qeyd edir bu gün.
Xalqımız şadlanır, sevinir bu gün,
Gözün aydın olsun, Azərbaycanım!

Düşmən qələbənə susur, qəmlənir,
Başının üstündə bayraq yellənir.
Bu bayraq altında xalqım cəmlənir,
Qələbən mübarək, Azərbaycanım!

Rəhbərə alqış!

Azərbaycan xalqının 30 illik həsrətinə son qoyan, doğma Qarabağı bizə qaytaran Azərbaycan Respublikasının Prezidenti, cənab Ali Baş Komandan, Müzəffər sərkərdəmiz İlham Əliyevin uğurlu fəaliyyətinə həsr edirəm.

Faşistlər yurduma şığıyan zaman,
Bizi imtahana bərk çəkdi zaman.
Ordumuz uğurla verdi imtahan,
Müzəffər sərkərdəm İlhama alqış!

Vətən müharibəsi başlayan zaman,
Yumruq tək birləşdi, tam Azərbaycan.
Döyüşdə faşistə uddurdular qan,
Cəsur sərkərdəmiz İlhama alqış!

Xalqımla bir oldu doğma ordumuz,
Yox etdi düşməni güclü ordumuz.
Qurtardı işğaldan ana yurdumuz,
Qorxmaz iradəli rəhbərə alqış!.

Düşmən hər şərtində dedi status,
Ordum zəfər çaldı, getdi status.
Rəqib məğlub oldu, çox oldu məyus,
Qalib sərkərdəmiz İlhama alqış!

Cəbhədə düşməni susduran, qıran,
Mübariz, Poladın qisasın alan,
Amansız faşisti yurdumdan qovan,
Qorxmaz iradəli rəhbərə alqış!

Erməni faşistə qanlar udduran,
Ordunun başında cəsur-mərd duran.
Doğma Qarabağı bizə qaytaran,
Müzəffər sərkərdəm İlhama alqış!

Qalib sərkərdəsi doğma ölkənin,
Aldı qısasını hər bir şəhidin...
Yox etdi arzusun faşist düşmənin,
O, dəmir yumruqlu rəhbərə alqış!

Erməni faşistin niyyətin pozan,
Azad-şad ölkənin tarixin yazan.
Qalib tək məğluba imza yazdıran,
Xalqın cəsur oğlu İlhama alqış!

Qələbə bayrağın sancdı Şuşada,
Adı məşhurlaşdı bütün dünyada.
Tarixi dərs verdi faşist cəllada,
Qorxmaz iradəsi rəhbərə alqış!

Verdi cavabını sarkisyanların,
Nahaq qanlar tökən köçəryanların,
Susdurdu ordusun paşinyanların,
Faşisti susduran rəhbərə alqış!

Döndərdi yurdumu şən gülüstana,
Zəfəri yayıldı bütün cahana.
Zəfəri sığışmaz kitab-dastana,
Müzəffər sərkərdəm İlhama alqış!



Qəqəni ləqəbli İlqar Abdullayev kimdir?



Azərbaycan Respublikası Qarabağ Müharibəsi Əlilləri, Veteranları və şəhid ailələri İctimai Birliyinin üzvü, Qarabağ qazisi İlqar İltiqat oğlu Abdullayevin döyüş şücaəti unudulmur.

Abdullayev İlqar İltiqat oğlu 1974-cü ilin noyabrında Lerik rayonunun Çayrud kəndində müəllim ailəsində anadan olub. Ailədə 4 qardaş, 3 bacı pərvəriş tapıb. 1979-80-ci illərdə Çayrud kənd tam orta məktəbində oxumağa başlayıb. Hələ aşağı siniflərdə oxuyarkən hərbiyə hədsiz həvəsi olduğunu hiss edib.

Televiziyada "Mən səni dünyalar qədər sevirdim" filminin kadrlarına baxarkən general Səməd bəy Mehmandarov ayaqyalın, cılız bir uşağa sual verir: "Sən böyüyəndə nəçi olarsan?" Uşaq tez cavab verir:

- Mən böyüyəndə general olacam! General gülümsəyir.

Bu balaca uşaq Həzi Əhəd oğlu Aslanov idi. Balaca Həzi böyüyür. İkinci cahan müharibəsində fövqəladə igidlik və qəhrəmanlıq göstərdi. O, tank qoşunlarının komandiri, qvardiya general mayoru olur. Göstərdiyi şücaətlərə görə iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür, Azərbaycanın fəxri, əsgər və zabitlərin, generalların, dövlət başçılarının sevimlisinə çevrilir.

Atası İltiqat müəllim və anası Dilşad xanım balaca vaxtlarında İlqara sual verəndə ki, böyüyəndə hansı sənətə sahib olarsan? O, qürurla deyərdi: "Mən qəhrəman Həzi babam kimi hərbçi general olacam". Ondan böyük qardaşları artıq ali məktəblərdə tələbə idilər: Şəhriyar Kənd Təsərrüfatı Akademiyasında, Vüqar isə Slavyan Universitetində oxuyurdu. Yeniyetmə İlqar həmişə atası İltiqat müəllimə deyərdi ki, mən gələcəkdə hərbçi olacağam.

İlqar orta məktəbdə yüksək qiymətlərlə oxuyurdu. O, müəllimlərin və sinif yoldaşlarının dərin rəğbətini qazanmışdı. İbtidai hərbi hazırlıq dərsini səbirsizliklə gözləyirdi, hərb elminə marağı daha çox idi. Nəhayət, 1992-ci ilin mayında Çayrud kənd tam orta məktəbi ilə vidalaşdı. Bir müddət Sumqayıt şəhər 24 saylı tikinti trestində çalışmağa başladı. 1993-cü ilin yanvarında həqiqi hərbi xidmətə getmək üçün Lerik rayon Hərbi Komissarlığına çağrıldı və ordu sıralarına "N" saylı hərbi hissədə hərbi xidmətə başladı. Üç ay təlim-məşq toplantısından sonra bir batalyondan ibarət əsgər və zabitləri seçib onları Qala qəsəbəsində yerləşən xüsusi təyinatlı aviasiya hərbi bazasına gətirdilər. Gərgin, ağır taktiki döyüş sınaqlarından keçdikdən sonra yenidən təlim meydanına gətirdilər. Burada İlqargil bütün bacarıqlarını nümayiş etdirdilər. Avqust ayının axırlarında onları avtovuslarla qaynar nöqtələrə yola saldılar. Səhər saatlarında isə onlar Füzuli ərazisində yerləşən 777 saylı hərbi hissənin tərkibinə daxil oldular. Əhmədbəylidən "25-30 kilometr piyada gəlib düşmən mövqeləri ilə üzbəüz Alxanlı və Qaraxanbəyli yaxınlığındakı postlarda yerləşdilər. Bundan sonra İlqarın döyüş yolu başladı. Hərbçi olmaq çoxdankı arzusu idi. İndi isə hərbi libasda, əlimdə silah, üstəlik Qarabağ uğrunda, işğal edilmiş torpaqların erməni hərbi birləşmələrindən təmizləmək, azad etmək istiqamətində canını fəda etməyə hazır idi və bununla böyük qürur hissi duyurdu. Bir çox döyüş əməliyyatlarında və kəşfiyyat qruplarında uğurları oldu. Bir neçə dəfə onun rabitəçi olmağıma baxmayaraq kəşfiyyat qrupu ilə birlikdə erməni mövqelərini gecə keçiblər. Düşmənin mövqelərinin və silah-texniki bazalarının yerini dəqiqliklə öyrənib və lazımi məlumatları toplayaraq komandir və rəislərə məruzə etdilər. Koordinatları atıcı diviziyonlara təqdim etdikdən sonra onlar da düşmən mövqelərini bombardman edirdilər. İlqar indi də böyük fəxr hissi keçirir ki, bir çox Milli Qəhrəmanlarla birgə döyüşlərdə iştirak edib. Füzuli, Ağdərə, Ağdam və Tərtər yüksəklikləri uğrunda gedən döyüşlərdə düşmənlərə qarşı fədakarlıqla vuruşan Əliyar Əliyev, Qabil Məmmədov, Arzu Sadıqov, Fikrət İsayev, Nazim Babayev, Samir Xasıyev, Natiq, Qəmlo ləqəbli döyüşçü və bir çox cəsur qəhrəmanlarla döyüş yolu keçmək, çiyin-çiyinə döyüşmək hər adama nəsib olmur...

1993-cü il idi. İyun hadisələrinin qarşısının alınmasında, Gəncə şəhərində qiyamçıların zərərsizləşdirilməsində iştirak etmişdi. Nəhayət, 1994-cü ilin aprel ayının 24-də Tərtər yüksəklikləri (Nəmirli, Seyidsular, Talış, Soltanlı uğrunda düşmənlə qeyri-bərabər döyüşdə (rus muzdluları və Jannanın başçılıq etdiyi snayper dəstəsi) çox itkilər verərək geri çəkilməyə məcbur olduq. Silah-sursat vaxtında bizə gəlmədiyinə görə...

(Davamı gələn sayımızda)

Unuda bilmirəm əmim Şirvanı

Lerik rayonunun ağsaqqalı, yeri görünən ziyalı, xeyirxahlığı ilə ürəklərdə iz saxlamış əmim Şirvan Muradova ithaf olunur

Nə qədər yaşasam, nə qədər yazsam,
Əmim Şirvan çıxmaz mənim yadımdan.
Şirin söhbətləri, şirin sözləri,
Qalıb yaddaşımda, qalıb yadımda.

Unuda bilmirəm keçən illəri,
At çaparaq bizə gələn günləri.
Baldan şirin, şəkər olan sözləri,
Unuda bilmirəm o mərd insanı,
Unuda bilmirəm əmim Şirvanı.

Onu görmüşəm çox gənc yaşımda,
Həsrəti, istəyi qalıb başımda.
Hələ də mən 72 yaşımda,
Unuda bilmirəm o qəhrəmanı,
Unuda bilmirəm əmim Şirvanı.

Xalidə Məmmədova,
Lənkəran, Separadi kəndi

Yox et bu bəlanı dünyadan, Allah

Düşübdür lərzəyə gözəl dünyamız,
Virusun əlindəın hara gedək biz?
Dünyanın sonudur? Məhşər günüdür?!
Qiyamət gününü dəyişdin, Allah?

Ölüyə ağlamaq, toy-düyün etmək,
Qanunla qadağandır, olubdur yasaq.
Şadlıq evlərinin yanmır çırağı,
Götür bu qorxunu dünyadan, Allah!

Çıxmır qorxusundan çölə dilənçi,
Nə aşxana işləyir, nə də ki, çayçı.
O nazlı dilbərə gəlmədi elçi,
Sevincli günləri sən qaytar, Allah!

Qapanıb ağızlar, bağlanıb yollar,
Görən bu bəlanın sonumu olar?
Qorxudan boş qaldı müqəddəs yerlər,
Götür bu bəlanı dünyadan, Allah!

Xəzər qüssəlidir, tərpənmir gəmi,
Dalğalar hisrlidir, bilinmir dərdi.
Görüş yerlərinə, gələn olmadı,
Qaytar dünyamızı şadlığa, Allah!

Bulvar boş qalıbdır, görünmür heç kim,
Bəla hardan gəldi, bilməyir heç kim.
Canın qurban etdi bir neçə həkim,
Dünyanı bu dərddən xilas et, Allah!

Əcaib, hiyləgər, qorxulu düşmən,
Hardan peyda oldun yer üzünə sən?
Xainsən, qəddarsan, sən bir vəhşisən,
Sən bizə kömək ol, ey qadir Allah!

Alıbdır cənginə dünyanı virus,
Tapmadı bir çarə nə çinli, nə rus.
Ağırdır dərdimiz, barı sən də sus,
Qoyma dağılmağa dünyanı, Allah!

Dünyada yaranıb ölüm cəbhəsi,
Buraxmaq istəmir heç bir kimsəni.
Alim də, həkim də çağırır səni,
Götür bu bəlanı dünyadan, Allah!

Surxay Əsədov,
Əməkdar müəllim

Müsabiqənin qalibi

Mədəniyyət Nazirliyinin elan etdiyi "Vətənpərvərlik mövzusunda ədəbiyyat müsabiqəsi"-nin qalibləri müəyyənləşib.

Komissiyanın 9 üzvü tərəfindən 268 əsərin mövzu, bədii və peşəkar yaradıcılıq baxımından dəyərləndirilməsi aparılıb və mətnlərə müəyyən edilmiş qiymətləndirmə cədvəlinə müvafiq olaraq qiymət verilib.

"Peşəkar yaradıcı şəxslər" kateqoriyasında poeziya janrı üzrə Balayar Sadiqin "Şəhid məktubu" əsəri müsabiqənin qalibi müəyyənləşib.

"Lerik"

Oxucuların diqqətinə

"Lerik" qəzetinin 22 dekabr 2020-ci il tarixli 11-12 (6023-6024) sayında 3-cü səhifədə "Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir" başlıqlı yazıda dərc olunmuş iki şəkil yazıda səhv düşmüşdür. Bunun üçün oxuculardan üzr istəyirik.

Səhvə yol verənlər cəzalandırılmışlar.

"Lerik"

Allah rəhmət eləsin

Lerik RİH-in başçısı Rövşən Bağırov və başçılıq etdiyi aparatın kollektivi Elman Abbasova atası

Məmmədxan Abbasovun

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Lerik RİH-in başçısı Rövşən Bağırov və başçılıq etdiyi aparatın kollektivi Elman Abbasova qardaşı

Telman Abbasovun

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elxan Əliyev, Maqsud Ağayev, Balaşirin Nəsirov, Müqəddəs Dənziyev, Hüseynbala Əliyev, Cavid Cavadov, İlham Dadiyev, İdris Şıxəliyev, Malik Mirzəyev, Nizaməddin Muradov, Abdin Alişanov, Vəligülla Alışov, Baba Tağıyev, Asif İmanov, Ülfət Bəbirov Elman Abbasova qardaşı

Telman Abbasovun

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İdris Şıxəliyev, Nizaməddin Muradov, Hüseynbala Əliyev, İdris Şükürlü, Etibar Həşimov, Mahmud Zahidov, Gülmirzə Tağıyev, Balaşirin Nəsirov, Elxan Əliyev, Malik Mirzəyev, Xalıqverdi Tağıyev, Nəcəf Məmmədov

Əlihüseyn Əliyevin

vaxtsız vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verirlər.

Lerik Rayon Polis şöbəsinin kollektivi Vüsal Əliyevə atası

Əlihüseyn Əliyevin

vaxtsız vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Lerik rayon filialının sədri Veysəl Məlikov və Birliyin üzvləri II qrup əlil

Əlihüseyn Əliyevin

vaxtsız vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verirlər.

Balaşirin Nəsirov, İdris Şükürlü, Hüseynbala Əliyev, Əziz Əkbərov, Qurban Ağayev, Davud Manafof, Mahmud Zahidov

Bakir Vahabovun

vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verirlər.

Lerik RMX-ın direktoru Maqsud Ağayev və xəstəxananın kollektivi

Ramiz Məmmədovun

vaxtsız vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verirlər.

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
H/№AZ05AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Nizami küçəsi
Tel: (070) 520-73-91

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Tiraj: 400
Sifariş: 66